# *XÜLASƏ*

*DİN Tibb İdarəsinin Arif Heydərov adına Respublika Hospitalı müasir standartlara cavab verən tibb ocağıdır. Hospitalın Uronefrologiya şöbəsi ən müasir avadanlıqlarla təmin olunmuş endoskopik kabinetə, sarğı otağına, endoskopik cərrahi təlim kabinetinə, distansion dalğa zərbə litotripsiya bölməsinə, Avropa standarlarına uyğun olan uroloji əməliyyatxanaya, urodinamiya otağına və 20 yaxın stasionar çarpayıya malik bir şöbə kimi formalaşmışdır. Bu gün inkişaf etmiş ölkələrin müasir klinikalarında urologiya demək olar ki, endoskopik cərrahi xidmətdən ibarətdir.*

*Uroloji orqanlanların öz aralarında müxtəlif yollarla bir - birilə bağlı olması endoskopiyanın icrasını urologiyada asanlaşdırır. Sidik ifrazı sisteminin istənilən orqanına endoskopik üsulla catmaq , orada əməliyyat aparmaq olar.*

*Hospitalın həkim uroloqları tərəfindən prostat vəzin xoşxassəli böyüməsi zamanı TUR, sidik kisəsi törəməsinin TUR, sidik axarı daşlarının endoskopik üsulla xaric edilməsi, böyrəkdə çox saylı və iri ölçülü daşların insan bədənində kəsik aparılmadan, sadəcə dəridə 1,0 sm ölcüdə dəlik açmaqla xarıc olunması, böyrək daşlarının sidik kanalından müdaxılə etməklə parçalanması, sidik kisəsi daşlarının sidik kanalından keçməklə xarıc edilməsi əməliyyatları aparılır.*

*Uronefrologiya şöbəsinin nəzdnində yeni açılmış Distansion Zərbə Dalğa Litotripsiya bölməsi Almaniyanın "Dornier" şirkətinin ən son model litotriptoru ilə təchiz edilmişdir. Distansion zərbə - dalğa litotripsiya – böyrək daxilində və eləcədə sidik axarının yuxarı hissələrində olan daşların məsafədən orqanizmə müdaxilə etmədən parçalanması üçün tətbiq edilən bir müalicə usuludur.*

*Hospitalda yaradılan endoskopik cərrahi təlim kabineti gənc kadrların laparoskopik əməliyyatlarda praktiki vərdişlərinin artırılması, eyni zamanda Hospitalda təhsil alan rezidentlərin bu cərrahi metodların ilkin vərdişlərinə yiyələnməsində mühüm rol oynayır.*

*DİN Tibb İdarəsinin A.Heydərov adına Respublika Hospitalının dünyanın ən yüksək standarlarına cavab verən müasir texniki bazası və elmi təcrübəli kadr potensialı imkan verir ki, urenefroloji xəsəliklərin diaqnostikası vaxtında və düzgün aparılsın, müalicəyə patogenetik yanaşılsın, əksər uroloji – cərrahi patologiyalar endoskopik , laparoskopik , qapalı yolla müalicə edilsin.*

*Yuxarıda sadalananlarla bərabər DİN-nin A.Heydərov adına Respublika Hospitalında sidik - cinsiyyət sistemi xəstəliklərinin (əsasən xroniki residiv gedişli formalarının) müalicəsində fizioterapevtik metodlardan geniş tətbiq olunur. Bunlarla bərabər təbii müalicə amilləri də (paraffin, naftalan, vulkan palçığı) xəstəliklərin müalicəsində geniş istifadə edilir.*